*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 2* *ISSN 2663-4414*
*Səhifə: 148-152* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.2.148*

# Qazax ədəbiyyatının inkişaf mərhələlərinə yığcam baxış

**Pərvanə Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Texniki Universiteti
E-mail: parvana.mamedova.72@mail.ru

**Xülasə.** Məqalədə qazax ədəbiyyatının inkişafını onun ilkin təşəkkül dövründən başlayaraq sonuncu dövrünə – 1991-ci ildən günümüzə qədər olan dövrü araşdırmaq qarşıya məqsəd olaraq qoyulmuşdur. Araşdırmalardan məlum olmuşdur ki, qazax ədəbiyyatı uzun zaman kəsiyində folklor nümunələri əsasında inkişaf etmişdir. Bununla belə, bu, heç də qazaxlara ümumtürk örnəklərinin yaradılmasında iştirak etməyə mane olmamışdır. Sonrakı dövrlərdə jirau və akın yaradıcılığının qazax ədəbiyyatına təsiri yetərincə nəzərəçarpan olmuşdur. XIX əsrin ortalarından başlayaraq Ç.Valixanov, İ.Altınsarin, A.Kunanbayev kimi qazax ədəbiyyatı nümayəndələrinin yaradıcılığına söykənən yazılı ədəbiyyat yaranmışdır. Məhz adlarını çəkdiyimiz yazıçıların yaradıcılığından sonra XX əsrin əvvəllərində qazax ədəbiyyatında xeyli dərəcədə sıçrayış baş vermişdir. Odur ki, biz bundan sonra yazılacaq məqalələrdə XX əsr qazax ədəbiyyatına və onun müasir dövrdəki inkişaf mərhələlərinə nəzər salmağı düşünürük.
Qazax ədəbiyyatının inkişaf mərhələlərinə yığcam nəzər saldıqda görürük ki, milli ədəbiyyatın inkişaf perspektivləri adlarını çəkdiyimiz qazax şairlərinin əksəriyyətinin yaradıcılığında gerçəkliyin bədii interpretasiyasına və tendensiyalarda gedən irəliləyişlərə söykənir. Ona görə də gələcəkdə qazax ədəbiyyatının sonrakı mərhələlərdə inkişafını araşdıraraq, məsələni hərtərəfli və daha dərindən öyrənməyə çalışacağıq.
**Açar sözlər:** qazax ədəbiyyatı, inkişaf mərhələləri, qədim abidələr, şifahi yaradıcılıq, jirau, akın

**Məqalə tarixçəsi:** göndərilib – 15.03.2023; qəbul edilib – 31.03.2023

# A brief look at the development of the stages of Kazakh literature

**Parvana Mammadova**
Doctor of Philosophy in Philology
Azerbaijan Technical University
E-mail: parvana.mamedova.72@mail.ru

**Summary.** In this article, it is asimed to study the main periods in the development of Kazakh literature, starting from its formation and up to the last period, which includes from 1991 to the present. With a careful study of the issue, it becomes clear that for a long time Kazakh literature has developed on the basis of folklore samples. However, this did not prevent the Kazakhs from becoming close participants in the creation of samples of general Turkic literature. In subsequent centuries, the influence of the work of zhyrau and akyns on Kazakh literature was very noticeable. In the 19th century written literature appears, thanks to representatives such as Ch.Valikhanov, I.Altynsarin and A.Kunanbaev, after whom, starting from the beginning of the 20th century, there is

a significant rise in this area. In subsequent articles, we will look in more detail on the Kazakh literature of the twentieth century and the stage of its development in the present period.
When we briefly look at the development stages of Kazakh literature, we see that the development perspectives of our national literature is based on the artistic interpretation of reality and advancements in tendencies in the creativity of Kazakh poets whose names we mentioned. That is why we will try to examine the subject comprehensively and in depth by examining the development of Kazakh literature in later stages.
**Keywords:** Kazakh literature, stages of development, ancient monuments, oral creativity, zhyrau, akyn

**Article history:** received − 15.03.2023; accepted − 31.03.2023

## Giriş / *Introduction*

Qazax ədəbiyyatı öz tarixi köklərini digər türk xalqları və dünya ədəbiyyatları kimi folklor yaradıcılığından, əzəmətli epik nümunələrdən, ümumtürk yazılı ədəbiyyatının nüvəsini təşkil edən abidələrdən, oğuz türklərinin VII-XIII əsrlərdə yaradılmış "Kitabi-Dədə Qorqud" epik dastanlarından, Orxon-Yenisey yazılarından, Bilgə-Kağan və onun qardaşı Kül-Tiginin şərəfinə tikilmiş abidələrdə yer almış nümunələrdən, türk qəbilələrinin xalq mərasim poeziyasının motivlərindən götürmüşdür (Сатпаева, Ш.К.; Адибаев, Х.А.;, стр. 51).

## Əsas hissə / *Main Part*

Bəri başdan bildirək ki, bu məqalədə biz qazax folkloru, eposu və onun digər nümunələri haqqında yox, onun müəllifli örnəklərinin yaradılmasından bəhs edəcəyik. Qaraxanilər dövründən (X-XII əsrlər) başlayaraq, Orta Asiya və Qazaxıstan arealında bir sıra tanınmış dini-fəlsəfi, etik-estetik yaradıcılığı inkişaf etdirən mütəfəkkirlər yazıb-yaradır ki, onlar ağıllı, müdrik fikir və nəsihətləri ilə umumtürk və qazax xalq düşüncəsinin formalaşmasına öz nəzərəçarpacaq təsirini göstərmişlər. Onların sırasında həmin dövrlərdəki Balasaqun şəhərindən olan Yusuf Balasaqunlunun "Kutadqu bilik" (1069), Kaşqardan olan Mahmud Kaşğarlının "Divani-lüğət-it türk" (1072-1074), Türküstanın Yassı şəhərindən olan Şeyx Əhməd Yəsəvinin "Divani hikmət"i, sufi sairi Süleyman Bağırqaninın folklor, dil, tarix, etnoqrafiya və xalqların mədəniyyətlərini və qəbilələrin qarşılıqlı münasibətlərini əks etdirən əsərləri, Şeyx Əhməd Yuğnəkinin "Həqiqət çantası" və s. nümunələrin qazaxların, uyğurların, azərbaycanlıların, özbəklərin, qaraqalpaqların, qırğızların, türkmənlərin, noğayların və digər türk xalqlarının mədəni həyatında yerinin yenilməzliyi qeyd edilməlidir (Сатпаева, Ш.К.; Адибаев, Х.А.;, стр. 53) (Кор-Оглы , стр. 23-31) (Кор-Оглы, стр. 99-108).

XIII əsrin əvvəllərində monqol basqınları nəticəsində regionun mədəni-mənəvi həyatında xeyli dərəcədə durğunluq baş verdi. İşğalçılar əsrlər ərzində yaradılmış mədəni abidələri və dəyərləri yerləyeksan etdilər, insanlar qul halına salındılar. Qazaxıstan əraziləri Çingizxan, Şoşı, Cağatay və onların nəsillərinin təsiri altında Qızıl Orda, Ağ Orda adı altında dövlət hakimiyyətinə tabe etdirildilər.

Qeyd edək ki, XIII-XV əsrlərdə qədim Ak-Tobe şəhərinin dağıntıları altında Quryev şəhərinin yaxınlığında Qızıl Orda şəhərinin mövcudluğu, orada qədim karvan yollarının olduğu müəyyən edilmişdir. "Oğuznamə" (XIII əsr), "Məhəbbətnamə" (XIV əsr) və başqa bu kimi abidələrin yaradılmasında digər türk xalqları ilə birgə qazaxlar da iştirakı etmişlər.

Qazax xanlıqları çoxlu rəngarəng kanlı, qıpçaq, arqın, nayman, dulat, alan, alban və digər tayfalar birliyindən formalaşmışdır. Mürəkkəb tarixi şəraitlərdə formalaşan xanlıqlar gah möhkənlənir,

gah da zəifləyirdi. Bütün bu çətinlik və ziddiyyətlərə baxmayaraq, qazax ədəbiyyatı heç bir halda öz inkişafını dayandırmırdı.

Qazax ədəbiyyatının inkişafını mərhələlərlə tədqiq edən professor Nizami Məmmədov Tağısoy onun irəliləyişində və istiqamətlərinin müəyyənləşməsində altı ardıcıl bir-biri ilə üzvi surətdə bağlı olan dövrləri fərqləndirir. Dövrlərin belə təsnifi, əsasən bizim yanaşmamıza da yardımçı olur: 1) ümumtürk şifahi xalq yaradıcılığı və Orxon-Yenisey abidələri (VI-VIII əsrlər); 2) oğuz-qıpçaq dövrü (IX-XIII əsrlər). Oğuz-qıpçaq dövrünün daxilində həm də qaraxanilər dövrü və ümumtürk yazılı ədəbiyyatı dövrü (Yusuf Balasaqunlu, Mahmud Kaşğarlı, Şeyx Əhməd Yuğnəki, Şeyx Əhməd Yəsəvi, "Kodeks Kumanikus", "Qorqud Ata" və "Oğuznamələr" (XI-XII əsrlər); 3) monqol dövründən sonrakı mərhələ (XIII-XIV əsrlər); 4) XV-XIX əsrlər qazax şifahi xalq ədəbiyyatı dövrü – XIV-XV əsrlər qazax xalqının formalaşdığı, qazax milli ədəbiyyatı və qazax dövlətçiliyinin meydana gəldiyi mərhələ kimi səciyyələndirilir (Qeyd edək ki, tədqiqatçı burada, bu dövrün özünün içində yenə də üç mərhələ – jırau mərhələsi (XV-XVIII əsrlər); poeziya dövrü (XVIII əsr və XIX əsrin birinci yarısı), aytıslar (müşairələr) dövrü (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri), 5) sovet dövrü (1920-1991 illər); 6) müstəqillik dövrü (1991-ci ildən başlayaraq günümüzə qədər) (Məmmədov Tağısoy, s. 11) mərhələlərinin ümumi mənzərəsini ortaya qoyur.

Qazax ədəbiyyatının inkişafında ən yaddaqalan və daha məhsuldar jırau və akın yaradıcılığı dövrünü hesab etmək olar. Əslində bu dövr daha uzunömürlüdür. Öz başlanğıcını XV əsrdən götürsə də, demək olar ki, o, milli ədəbiyyatın heç bir inkişaf mərhələsində öz fəaliyyətini dayandırmamışdır (Çünki nəinki XV-XIX əsrlərdə, elə bu günün özündə də akın yaradıcılığı qazax milli mədəniyyətinin danılmaz tərkib hissəsi kimi öz ömrünü davam etdirməkdədir).

XV-XVIII əsrlər arasında qazax bədii-poetik sözünün ortaya gəlməsi Qazıtuğan-jırau, Asan Qayğı, Dosmambet-jırau, Şalkiiz-jırau, Jiembet-jırau, Axtamberdı-jırau, Umbetey-jırau, Buxar-jırau, Şal-akın və başqa bu kimilərin yaradıcılığına söykənərək inkişaf etmişdir. XIX əsr və XX əsrin əvvəllərində isə Mahambet, Yazıq, Şirniyaz, Şortanbay, Suyunbay, Ağmolla, Birjan-sal, İbray Altınsarin, Murat Monkin, Bazar, Axan-sere, Abay, Şangirey Bukeyev, Şakərim, Məşhur Yusuf Kopeyev, Əsəd, Nərimanbet, Qumar Qaraşov, Turmaqambet İztleuov, Sabit Donentayev, Sultanmahmud Torayqırov, Cambul Cabayev və başqa bu kimi akınlar qazax ədəbiyyatının, o cümlədən onun yazılı örnəklərinin inkişafında əsaslı rol oynamışlar (1993) (Дюсенбаева, стр. 14-301).

Yuxarıda adlarını qeyd etdiyimiz klassik ümumtürk nümunələri ilə yanaşı, qazax jırau və akınlarının yaradıcılığı nəticədə XIX əsrin ikinci yarısından başlayaraq yazılı ədəbiyyat örnəklərinin ortaya çıxması üçün münbit zəmin hazırlamışdır. Ç.Valixanov, İ.Altınsarin, Axan-sıre Koramsin və digərlərinin yaradıcılığı əslində Qazaxıstanda mədəniyyəti, ədəbiyyatı, incəsənəti və təhsili yeni istiqamətdə inkişaf etdirməklə prinsipial baxımdan maarifçiliyi insanın və bəşəriyyətin özünəməxsus humanizm konsepsiyası istiqamətinə yönləndirməyə səy göstərdilər (Дюсенбаева, стр. 111).

Ç.Valixanovun, İ.Altınsarinın, A.Kunanbayevin öz dövrü üçün zəruri olan dünyəvi elmləri öyrənməsi, akad. P.P.Semyonov-Tyan-Şanskinin, rus ictimai-demokratik fikrinin əvəzsiz nümayəndələri V.Q.Belinskinin, N.Q.Çernışevskinin, N.A.Dobrolyubovun, Q.N.Potaninin, N.V.Qoqolun, A.Maykovun, Y.Polonskinin, A.S.Puşkinın, M.Y.Lermontovun, F.M.Dostoyevskinin, eyni zamanda Şərq ədəbiyyatının klassikləri Firdovsi, Nizami, Nəvai, Hafiz, Füzuli, Cami; Avropa yazıçıları Ç.Dikkensin, J.Sandın və b. bu kimi fikir sahibləri ilə yaxından tanışlığı, İ.A.Krılov, L.N.Tolstoy, İ.S.Turgenev, M.Y.Saltıkov-Şedrin, A.İ.Hertsenlə yanaşı, Qərb mütəfəkkirləri, Höte, Bayron, Mitskeviç, Spenser, Spinoza və Darvin kimi böyük alimlərin əsərlərinin mütaliə edilməsi nəticəsində onların fərdi istedadında kükrəyiş baş vermişdir (Дюсенбаева, стр. 133).

Əlbəttə, qazax yazılı ədəbiyyatı nümayəndələrinin yaradıcılığından bəhs edərkən səthi də olsa, Abay Kunanbayevin Şərq klassiklərinin, o cümlədən Nizami poemalarının süjet və motivlərinə söykənərək onun özünün orijinal poemalarını yaratdığını da nəzərə almaq lazımdır. Abay, "Eskindir" poemasını məhz Nizaminin "İskəndərnamə" dastanının bir çox elementlərindən istifadə etməklə qələmə almışdır (Как казахи изучали…). Buna baxmayaraq, Abay tərəfindən Eskindir obrazının

traktovkası Nizamidəki sərkərdə obrazından yetərincə fərqlidir. Bu isə ilk növbədə onunla bağlı idi ki, İskəndər-Zülqərneynlə bağlı əfsanə qazaxlarda Nizamidən də əvvəl Qurandan və digər mənbələrdən məlum idi. Həmin əfsanələrdə İskəndərin işğalçı və fateh kimi digər xalqları əsarət altına aldığı təsvir olunduğundan, Abayı da məhz İskəndərin işğalçılıq və fatehlik xüsusiyyətlərini ortaya qoymaq özünə daha çox cəlb edirdi. Firuzə Ağayeva "Abay: şəxsiyyəti və ədəbi irsi" monoqrafik araşdırmasında yazır: "...Abayın tarixi mövzuya münasibəti sələflərinin münasibətindən müəyyən dərəcədə fərqlənirdi: Abay tarixin içində öz zəmanəsinin insanlarını və həyat həqiqətlərini göstərməyə üstünlük verir, bir maarifçi kimi insanların əxlaqına təsir göstərməyə çalışırdı (Ağayeva, s. 22).

Abay "İskəndər" poemasında baş qəhrəman İskəndəri özündən müştəbeh, başqalarına yuxarıdan aşağı baxan, bütün manеələrdən uğurla çıxan, qəzəbliliyindən, hirsliliyindən, hücumlarından, dağıdıcılığından bəhs edir. Poemanı Azərbaycan dilinə tərcümə etmiş istedadlı şair Novruz Gəncəlinin də əsərin özünəməxsus xarakterini, koloritini, müəllif ideyalarını, təsvirlərini orijinaldakılara uyğun şəkildə oxucuya çatdırmaqda israrlı olduğunu görmək mümkündür:

*"Mən şahların şahıyam – məşhur İskəndərəm mən*
*Yoxdur elə bir ölkə çıxsın itaətimdən.*
*Hakimlər hakiminə yaraşmaz dilənçi tək*
*Bağlı qapı dalında dura, izn ala səndən".* (Dursunova, s. 141)

Bizə belə gəlir ki, mütərcim Abayın qəhrəmanının düşüncələrinin adekvat verilməsində əsl istedad və şairlik məharətini təcəssüm etdirmişdir. Əsər müəllifinin İskəndər obrazına mənfi münasibəti poemanın həm də digər məqamlarında yer alır. Onların orijinalın mahiyyəti və qayəsi üzrə verilməsi də mütərcim tərəfindən düzgün dərk olunur. Poemanın süjet xətti o qədər də mürəkkəb deyil. İskəndər ordusu ilə Günəş istisindən səhraları oda qalamış çətin bir şəraitə düşür. Əzab-əziyyətlərdən qurtulmuş fateh, nəhayət, bir bumbuz bulağın yanına gəlir. Sudan içmiş ordu öz döyüş yürüşünü davam etdirir. Burada hündür qayalıqlarla əhatələnmiş bir dərə görünür. Ona giriş isə qızıl bir qala ilə bağlanmışdır. İskəndər nə qədər çalışsa da, qalanın qapısını aça bilmir. Qala qapısının qarovulcusu isə İskəndərin qəzəblə dediyi "Aç" sözünə belə cavab verir: "Qapıları sənə açmaq olmaz, ona görə ki, onlardan başlayan yol Allahın dərgahına aparır" (Дюсенбаева, стр. 187). Qarovulçunun cavabı Novruz Gəncəli tərcüməsində aşağıdakı kimi səslənir:

*"Çox güvənmə ağlına, lovğalıq eləmə, şah!*
*Yer sənə azlıq edir, nə qədər olar tamah?*
*Paxıllığından əl çək, bəsindir tutduqların,*
*Axır səni məhv edər, bu acgözlük, bu iştah!"* (Дюсенбаева, стр. 187)

Qoca dünyalar fatehinə izah edir ki, Allahın yanına aparan qapıları açmaq olmaz. O, İskəndərə simvolik olaraq mocüzəli sümük verir ki, bu, qızıldan daha sanballı, qiymətli imiş. Lakin şahın dostu müdrik Aristotel sümüyü yerə tökən kimi tərəzinin gözü yuxarı qalxır. Burada Aristotel İskəndərə qarovulçunun verdiyi hədiyyənin mənasını izah edir. Aristotelin özü isə əsərdə müəllif ideyalarının ifadəçisi kimi ortada dayanır.

Beləliklə, Abayın "İskəndər" poemasında digər Şərq müəlliflərinin əsərlərindən fərqli olaraq, İskəndər işğalçı kimi göstərilir ki, bu da əsərin özünəməxsus məzmununun açılmasına xidmət edir. Abayın digər poemaları "Masqud", "Əzim haqqında dastan" və başqa əsərləri də məzmun baxımından yetərincə özəldir.

Qazax ədəbiyyatının XX əsrin əvvəllərinə qədər inkişafından bəhs edərkən, yuxarıda adları çəkilən müəlliflərlə yanaşı, Akılbay Kunanbayev, Maqavya Kunanbayev və Şangerey Bukeyev kimi təfəkkür sahiblərinin adlarını da qeyd edə bilərik. Onu da bildirək ki, Akılbay Kunanbayev Abayın ilk oğlu olmaqla, on altı yaşında ata olmuşdu. Akılbayın bir neçə poeması vardı. Onlardan birincisi "Jarrax", ikinci "Dağıstan", üçüncü isə uzaq Afrika xalqlarının həyat motivlərinə həsr olunmuşdur.

Maqavya isə Abayın kiçik oğlu idi. Maqavya atasının məsləhəti ilə bir neçə poema qələmə almışdır. Onların sırasında "Yenlik-Kebek", "Abılbay", "Medqat-Qasım" və s. fərqləndirmək olar. Şangerey Bukeyevə gəldikdə isə onun çoxsaylı şeir nümunələri "Şayir", "Kökseldir", "Üç joktau" və digərlərinin çeşidli tərəflərindən bəhs etmək olar.

## Nəticə / *Conclusion*

Beləliklə, qazax ədəbiyyatının inkişaf mərhələlərinə yığcam nəzər saldıqda görürük ki, milli ədəbiyyatın inkişaf perspektivləri mərhələlərdə yer almış adlarını çəkdiyimiz qazax şairlərinin əksəriyyətinin yaradıcılığında gerçəkliyin bədii interpretasiyasına və tendensiyalarda gedən irəliləyişlərə söykənir. Ona görə də, gələcəkdə qazax ədəbiyyatının sonrakı mərhələlərdə inkişafını araşdıraraq, məsələni hərtərəfli və daha dərindən öyrənməyə çalışacağıq.

## Ədəbiyyat / *References*

Ağayeva, F. (2010). *Abay: şəxsiyyəti və ədəbi irsi*. Bakı: Elm.
Dursunova, F. (Red.). (2017). *Abay*. Bakı: Mütərcim.
Məmmədov Tağısoy, N. (2019). *Muxtar Auezovun yaradıcılığı: ənənədən novatorluğa.* Bakı: Şərq-Qərb.
Валиханов, Ч. (1961). *Собрание сочинений* (Т. I). Алма-Ата.
Дюсенбаева, И. (Ред.). (1979). *История казахской литературы. Дореволюционная казахская литература* (Т. II). Алма-Ата: Наук.
*Как казахи изучали…*. (б.д.). Получено из azerhistory.com
Кор-Оглы , Х. (1968). *Узбекская литература.* Высшая школа.
Кор-Оглы, Х. (1972). *Туркменская литература.* Высшая школа.
*Поэты пяти веков. Казахская поэзия XV – начала XX веков.* (1993). Алматы: Жазушы.
Сатпаева, Ш.К.; Адибаев, Х.А.;. (1985). *Казахская литература.* Алма-Ата: Мектеп.

# Краткий взгляд на развитие этапов казахской литературы

**Парвана Мамедова**
Доктор философии по филологии
Азербайджанский технический университет
E-mail: parvana.mamedova.72@mail.ru

**Резюме.** В настоящей статье поставлена цель поэтапно изучить основные периоды развития казахской литературы, начиная от её становления и вплоть до последнего периода, что включает в себя с 1991 года по настоящее время. При внимательном исследовании вопроса становится ясно, что на протяжении длительного времени казахская литература развивалась на основе фольклорных образцов. Однако это не помешало казахам стать близкими участниками в создании образцов общетюркской литературы. В последующие века влияние творчества жырау и акынов на казахскую литературу было весьма заметным. В XIX в. появляется письменная литература благодаря таким её представителям, как Ч.Валиханов, И.Алтынсарин и А.Кунанбаев, после которых, начиная с начала XX в., в этой области наблюдается значительный взлёт.
Краткий обзор этапов развития казахской литературы позволяет понять, что перспективы развития национальной литературы в творчестве большинства казахских поэтов, чьи имена

состоялись на этапах, основаны на художественном осмыслении действительности и движении в тенденциях. Поэтому в дальнейшем рассматривая развитие казахской литературы на более поздних этапах постараемся изучить этот вопрос основательно и глубже.
**Ключевые слова:** казахская литература, этапы развития, древние памятники, устное творчество, жырау, акын